

Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab-əziyyətlidir.

Heydər Əliyev


# MÜBARİZ KEŞİKDƏ

3 iyul 2020-ci il
Cümə

№ 22 (3487)

www.mk.mia.gov.az

- polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA POLİS ƏMƏKDAŞLARINI PEŞƏ BAYRAMI MÜNASİBƏTİLƏ TƏBRİK EDİBLƏR

**Prezident İlham Əliyev:**

"Qanunun keşiyində duran, ictimai asayişi qoruyan, daim Azərbaycan vətəndaşının yanında olan polis öz vəzifə borcunu ləyaqətlə yerinə yetirir".

**Mehriban Əliyeva:**

"Bütün polis əməkdaşlarını peşə bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Bu çətin günlərdə biz hamımız sizin vətəndaşlarımızın sağlamlığı naminə atdığınız qətiyyətli addımların, yüksək vətəndaş məsuliyyətinizin və peşəkarlığınızın şahidi olduq! Hər birinizə və doğmalarınıza möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram".

## AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ZABİTLƏRİNƏ ALİ XÜSUSİ RÜTBƏLƏRİN VERİLMƏSİ HAQQINDA

### *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin aşağıdakı zabitlərinə ali xüsusi rütbələr verilsin:

polis general-leytenantı ali xüsusi rütbəsi

polis general-mayoru Seyfulla Səttar oğlu Əzimova

polis general-mayoru ali xüsusi rütbəsi

polis polkovniki Teymur Kamil oğlu Hacıyevə

polis polkovniki Nurullah Abdulla oğlu Məmmədxanlıya.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 1 iyul 2020-ci il.*

## İÇƏRİŞƏHƏR TARİXİN DAŞ YADDAŞIDIR



İyunun 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunun bir hissəsində aparılan bərpa-konservasiya işləri ilə tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunda bu il görülən və gələn il icra olunacaq işlər barədə, 2018-ci ildən Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən "İstedArt" layihəsi barədə də məlumat verilib.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2016-cı ildə Qoşa Qala qapıları yaxınlığında aparılan arxeoloji qazıntılar zamanı aşkar edilən XVII əsrə aid yeraltı hamama baxıblar.

Məlumat verildi ki, hamamın konservasiya-bərpa işləri iki il ərzində həyata keçirilib. Burada aparılan işlər zamanı xeyli sayda arxeoloji tapıntı da üzə çıxıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qazanxana binasına baxıblar.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İçərişəhərdə görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini veriblər.

## AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN BİR QRUP ƏMƏKDAŞININ TƏLTİF EDİLMƏSİ HAQQINDA

### *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Cinayətkarlığa qarşı mübarizədə, ictimai asayişin mühafizəsində, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsində, ölkədə koronavirus infeksiyasının (COVID-19) yayılmasının qarşısının alınması məqsədilə tətbiq olunmuş xüsusi karantin rejiminə nəzarətin təmin edilməsi ilə bağlı xidməti vəzifələrini yerinə yetirməkdə fərqləndiklərinə görə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**"Vətən uğrunda" medalı ilə**

Ağayev Azay Akif oğlu - polis polkovnik-leytenantı

Ağayev Əlaslan Qaçay oğlu - polis polkovniki

Axundov Taləddin Bahadır oğlu - polis polkovniki

Azadəliyev Fəqan Cəbrayıl oğlu - polis polkovniki

Bağırov Eldar Həsən oğlu - polis polkovniki

Cabbarov Bəkir Bəşir oğlu - polis polkovniki

Əliyev İsmayıl İsrayıl oğlu - polis polkovniki

Hüseynəliyev Şərif Rövşən oğlu - polis polkovnik-leytenantı

İbrahimov Ələşrəf İbrahim oğlu - polis polkovniki

İmamverdiyev Ceyhun Rafiq oğlu - polis kapitanı

İmanov Ramin İman oğlu - polis polkovniki

İsmayılov Əkbər Məcid oğlu - polis polkovniki

Kərimov Elnur Elxan oğlu - polis polkovniki

Qarayev Polad Səhliyalı oğlu - polis polkovniki

Qocayev Şahin Musa oğlu - polis polkovniki

Məmmədzadə Nadir Şiraslan oğlu - polis polkovniki

Mirhəşimov Anar Böyükağa oğlu- polis polkovniki

Muradov Cavid Vidadi oğlu - polis polkovniki

Neymətov Süleyman Əsgər oğlu - polis polkovniki

Pənahov Səbuhi Faiq oğlu - polis polkovnik-leytenantı

Seyidov İlqar Fəxrəddin oğlu - polis general-mayoru

Seyidov Mirzeynalabdin Mir İsmayıl oğlu - polis polkovniki

**"İgidliyə görə" medalı ilə**

Əhmədov Orxan Məhəmməd oğlu - polis mayoru

İmanov Nəriman Bəxtiyar oğlu - polis polkovniki

İsmayılov Ayaz Muxtar oğlu - polis baş leytenantı

Səfərov Yamiddin Vəli oğlu - polis baş serjantı.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 1 iyul 2020-ci il.*

## AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR ORQANLARININ ŞƏXSİ HEYƏTİNƏ



*Hörmətli həmkarlar!*

*1918-ci il iyulun 2-də Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirliyinin tərkibində asayişi mühafizə dəstələrinin yaradılması ilə təməli qoyulan polis orqanları bütün dövrlərdə Vətənə və xalqa xidmət funksiyalarını layiqincə həyata keçirmiş, ulu öndər Heydər Əliyevin rəhbərliyi altında dövlətin əsas dayaqlarından biri kimi formalaşmışdır.*

*Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində davamlı surətdə təkmilləşən, böyük inkişafa nail olan daxili işlər orqanları yeni məlumat-axtarış texnologiyaları, avadanlıq və vasitələrlə tam təmin olunmuş, şəxsi heyətin sosial müdafiəsi gücləndirilmiş, qanunla müəyyən edilmiş vəzifələri səmərəli yerinə yetirməsi üçün müasir infrastruktur və lazımi şərait yaradılmışdır. Cinayətkarlığa, onun transmilli mütəşəkkil növlərinə qarşı mübarizədə, ictimai qaydanın qorunmasında, insanların həyatının, sağlamlığının, mülkiyyətinin, hüquq və azadlıqlarının müdafiəsi sahəsində görülən işlər, əldə edilən nəticələr isə dövlət başçısı və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti tərəfindən yüksək qiymətləndirilir. Xidmətdə fərqlənən əməkdaşların möhtərəm Prezident tərəfindən bu peşə bayramı ərəfəsində də dövlət mükafatlarına, ali xüsusi rütbələrə layiq görülməsi Zati-alilərinin Azərbaycan polisinin əməyinə verdiyi böyük dəyərin əyani təsdiqidir.*

*İnanıram ki, peşəkar fəaliyyəti, xalqa və Vətənə sədaqətli xidməti ilə seçilən daxili işlər orqanlarının şəxsi heyəti bundan sonra da sabitliyin, təhlükəsizliyin, vətəndaşların əmin-amanlığının keşiyində ayıq-sayıq dayanacaqdır.*

*Azərbaycan Polisinin yaranmasının 102-ci ildönümü münasibətilə Sizi, hörmətli veteranlarımızı, respublikanın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalmış və vəzifə borcunu yerinə yetirərkən həlak olmuş əməkdaşlarımızın ailə üzvlərini ürəkdən təbrik edir, möhkəm can sağlığı, xoşbəxtlik, xidmətdə və şəxsi həyatda uğurlar arzulayıram!*

*Bayramınız mübarək!*

*Vilayət Eyvazov,*
*Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik*
*1 iyul 2020-ci il.*

**İyulun 2-də Azərbaycan Polisi yaranmasının 102-ci ildönümünü qeyd edir. Bu münasibətlə Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə DİN-in əməkdaşları Fəxri xiyabana gələrək ulu öndər Heydər Əliyevin abidə kompleksi önünə tər çiçək dəstələri düzüblər. Həmçinin görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi ehtiramla yad olunub.**

**Sonra respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş mərd mübarizlərin uyuduğu Şəhidlər xiyabanı ziyarət olunub.**

**Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun 2 iyul Polis Günü münasibətilə "Azərbaycan" qəzetində geniş müsahibəsi dərc edilib. Aktuallığını və çoxsaylı oxucularımızın marağını nəzərə alaraq müsahibəni diqqətinizə çatdırırıq.**

*Bax səh.3-4*

## TARİXDƏ QALAN, TARİXƏ DÖNƏN GÜN

**Azərbaycan Polisi günü-iyulun 2-də Daxili İşlər Nazirliyinin Polis Akademiyasında 2019-2020-ci tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.**

**Respublikanın Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov tədbirdə iştirak edib.**

Tədbir iştirakçıları xalqımızın ümummilli lideri Heydər Əliyevin, suverenliyimiz və ərazi bütövlüyümüz uğrunda şəhidlik zirvəsinə ucalmış, xidməti borcu yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

*Ardı 2-ci səhifədə.*



# TARİXDƏ QALAN, TARİXƏ DÖNƏN GÜN



*Əvvəli 1-ci səhifədə.*

Təntənəli mərasimdə çıxış edən nazir Vilayət Eyvazov Akademiyanın müəllim və kursant heyətini əlamətdar gün münasibətilə təbrik edərək məzun gününün yaddaşlarda dərin iz qoyan unudulmaz hadisə, eyni zamanda, yeni həyatın başlanğıcı olduğunu, məzunları qarşıda daha məsul və şərəfli bir fəaliyyətin gözlədiyini diqqətə çatdırıb.

Qeyd olunub ki, dövlət müstəqilliyimizin bərpasından sonra ali təhsilli polis kadrlarına tələbat bütün ciddiliyi ilə gündəmə gəldiyindən Bakı Xüsusi Orta Milis Məktəbinin bazasında Polis Akademiyası yaradılıb və ona birinci dərəcəli ali təhsil müəssisəsi statusu verilib. Akademiyanın sonrakı inkişafı ulu öndərin və möhtərəm Prezidentimiz İlham Əliyevin adı ilə bağlı olmaqla ötən illər ərzində onun maddi-texniki bazası əhəmiyyətli dərəcədə güclənib, müasir infrastrukturu formalaşıb.

Daxili işlər orqanlarında peşəkarlığın artdığı ilə bağlı möhtərəm Prezidentin polisin 100 illik yubileyi münasibətilə təbrikində qeyd olunan fikirləri xatırladan general-polkovnik Vilayət Eyvazov Akademiyada müasir düşüncəsi, vətənpərvərliyi və digər mənəvi keyfiyyətləri ilə seçilən, yeni çağırışlara adekvat cavab verən, qarşıdakı hədəflərə çatmaq üçün geniş dünyagörüşünə malik Azərbaycan Polisinin yeni nəslinin yetişdiyini professor-müəllim heyətinin uğuru adlandırıb.



Nazir hazırkı internet əsrində, rəqəmsal dünyada yüksək bilik və bacarıq olmadan keçinməyin mümkünsüzlüyünü, bunun üçün Akademiyada kursantların intellektual səviyyəsinin yüksəldilməsindən ötrü hər cür şəraitin yaradıldığını, gələcəyin polislərinin xüsusi nəzəri bilik, fiziki və psixoloji hazırlığında pedaqoji kollektivin maksimum səy göstərdiyini, kursantlarda yüksək peşəkarlıq formalaşdırmaqla bərabər, indiki dövrdə çox vacib olan milli ruh, vətənpərvərlik, humanizm, zabit qüruru kimi mənəvi dəyərlər aşılamaq üçün səylərini artırdıqlarına da diqqət çəkib.

Cənab V.Eyvazov pandemiya dövrünün çətinliklərinə baxmayaraq mart ayının 14-dən etibarən tətbiq olunan sosial izolyasiya tədbirlərinin icrası sahəsində daxili işlər orqanları əməkdaşlarının aidiyyatı vəzifələri uğurla yerinə yetirməsinin, gücləndirilmiş iş rejimində çalışmasına baxmayaraq hər bir polis əməkdaşının qanun çərçivəsində hərəkət edərək insanların köməyinə çatmasının, onların həyati problemlərinin həllinə yardımçı olmasının, müraciətlərə həssaslıqla yanaşmasının, habelə, qanunu pozanlara qarşı mübarizədə dönməzliyinin ictimaiyyət tərəfindən həssaslıqla və minnətdarlıq hissi ilə qarşılandığını xüsusi vurğulayıb.

Daxili İşlər naziri cənab Vilayət Eyvazov təntənəli mərasim iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevi əmin edib ki, sıralarımıza qoşulan gənc zabitlər də xalqımızın asayişinin, təhlükəsiz həyatının etibarlı qorunması işinə layiqli töhfələr verəcək, qanunla müəyyən edilmiş vəzifələri və qarşıya qoyulmuş tapşırıqları tam yerinə yetirəcəkdir.

Polis Akademiyasının rəisi, polis general-mayoru Nazim Əliyev bu ali polis təhsil ocağında təlim-tədris prosesinin təkmilləşdirilməsi və maddi-texniki bazanın daha da möhkəmləndirilməsi istiqamətində görülən işlər barədə məruzə ilə çıxış edib.

O, təlim-tədris prosesinin daha da təkmilləşdirilməsi, bu işə ixtisaslı mütəxəssislərin cəlb olunması, informasiya texnologiyaları ilə peşəkarcasına işləməyi bacaran yeni nəsil polis əməkdaşlarının yetişdirilməsi, bütövlükdə müasir dövrün çağırış və təhdidlərinə cavab verən ixtisaslı kadr hazırlığının həyata keçirilməsi barədə qarşıya qoyulan tələblərin, əmr və göstərişlərin tam və yüksək səviyyədə yerinə yetirilməsi üçün bundan sonra da əzmlə çalışacaqlarına, bilik və bacarıqlarını əsirgəməyəcəklərinə Daxili İşlər nazirini əmin edib.



Tədbirin sonunda Daxili İşlər naziri Polis Akademiyasını fərqlənmə ilə bitirmiş məzunlara-Ata Vəliyevə, Məhəmməd Rzayevə, Nurlan Yusifova diplomları və «polis baş leytenantı» xüsusi rütbələrinin paqonlarını təqdim edib.

Polis leytenantı Nurlan Mirzəyev yaş kötüyünə rəmzi xatirə lövhəsini vurub.

Daha sonra döyüş bayrağı dördüncü kurs müdavimlərinə təhvil verilib. Müdavimlər «Azərbaycan Polisi» marşını ifa ediblər.

Sonda şəxsi heyət mətin addımlarla tribunanın qarşısından keçib.

# POLİS GÜNÜ ƏRƏFƏSİNDƏ YENİ İNŞA EDİLƏN BİNALARIN AÇILIŞI OLUB

**Azərbaycan Polisi Günü ərəfəsində - iyulun 1-də Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun iştirakı ilə DİN-in müxtəlif xidmət sahələri üçün inşa edilmiş daha 3 yeni inzibati binanın açılışı olub.**

**Baş Dövlət Yol Polisi İdarəsinin Diaqnostika Mərkəzinin, Nərimanov Rayon Mühafizə İdarəsinin və Sabunçu Rayon Polis İdarəsinin 15-ci Polis Bölməsi üçün tikilmiş inzibati binaların açılışında general-polkovnik Vilayət Eyvazova məlumat verilib ki, binaların hər birində müasir standartlara uyğun zəruri avadanlıq, inventar, mərkəzi havalandırma, istilik sistemləri, qazanxana, rabitə-kommunikasiya xətləri quraşdırılıb, ərazilərində abadlaşdırma, yaşıllaşdırma və xarici işıqlandırma işləri yerinə yetirilib.**

Tədbir iştirakçıları yeni binaların Növbətçi hissələrinə, xüsusi avadanlıq və kompüter sistemi ilə təchiz edilmiş xidməti otaqlara baxıb, ümummilli lider Heydər Əliyevin dövlətçiliyimizin qorunması və möhkəmləndirilməsi sahəsindəki yorulmaz fəaliyyətini, Prezident İlham Əliyevin daxili işlər orqanlarına xüsusi diqqət və qayğısını əks etdirən fotostendlərlə tanış olublar.

Vətəndaşlarımızın rahatlığına, onların nəqliyyat vasitələrinin vaxtında və keyfiyyətli müayinə edilməsinə şərait yaradacaq Qaradağ rayonu ərazisində inşa edilmiş Baş Dövlət Yol Polisi İdarəsinin Diaqnostika Mərkəzində minik avtomobilləri üçün 6, yük avtomobilləri üçün isə 2 müayinə xətləri yaradılıb. Müayinə xətləri yüksək dəqiqliklə diaqnostik xidmətlər aparılmasına imkan verən zəruri avadanlıqlarla təchiz olunub, avtoyuma və təmir boksları ilə təmin edilib.




Daxili İşlər naziri görülən işləri yüksək qiymətləndirib, şəxsi heyətin normal fəaliyyət göstərməsi üçün yaradılan şəraitdən məmnunluğunu bildirib, konkret tapşırıq və tövsiyələrini verib.

O qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən hüquqi-demokratik, sosial-iqtisadi islahatlar, fəal hüquq mühafizə siyasəti daxili işlər orqanlarının da fəaliyyətinin ən müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, maddi-texniki təminatının, şəxsi heyətin məişət və xidməti iş şəraitinin daha da yaxşılaşdırılması istiqamətində əhəmiyyətli addımların atılmasına əlverişli şərait yaradıb.

General-polkovnik Vilayət Eyvazov əmin olduğunu bildirib ki, şəxsi heyət dövlət başçımızın daxili işlər orqanlarına göstərdiyi ali diqqət və qayğıya bundan sonra da əməli işlə cavab verəcək, sabitliyin, əmin-amanlığın, ictimai təhlükəsizliyin nümunəvi qorunması sahəsində qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən yüksək səviyyədə və məsuliyyətlə gələcək.










# 102 İLLİK ŞƏRƏF SALNAMƏSİ



**Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov: "Dövlətin və xalqın mənafeyinə, Heydər Əliyev ideyalarına və Prezident İlham Əliyevin fəaliyyət kursuna sədaqətli, peşəkar xidmət Azərbaycan Polisinin əsas vəzifə borcudur"**

Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan iqtisadi-sosial inkişaf modeli ilə yanaşı, həm də təhlükəsizliyin və sabitliyin etibarlı təminatı baxımından dünyada mükəmməl nümunələrdən birini yaradıb. Beynəlxalq terrorçuluğun və transmilli cinayətkarlığın sərhəd tanımadığı, kriminogen durumun qlobal miqyasda kəskinləşdiyi müasir dövrdə ölkəmiz cənab Prezidentin təbirincə desək, sabitlik adasına çevrilib. Bu nailiyyətin əldə olunmasında şübhəsiz ki, daxili işlər orqanlarının əzmkar fəaliyyəti də mühüm səciyyə daşıyır.

102-ci ildönümünü qeyd edən Azərbaycan Polisi ictimai asayişin qorunmasında, müstəqil dövlətimizə qarşı yönələn cinayətkar qəsdlərin qarşısının alınmasında müstəsna xidmətlər göstərir. Torpaqlarımızın müdafiəsi, mütəşəkkil cinayətkarlığa qarşı mübarizə və digər istiqamətlərdə qarşıya qoyulmuş vəzifələri layiqincə yerinə yetirir.

Polis Günü ərəfəsində həmsöhbət olduğumuz Daxili İşlər naziri, general-polkovnik **Vilayət Eyvazov** bu tarixi nailiyyəti ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi srtateji kursla əlaqələndirir. Nazirin fikrincə, qlobal pandemiya ilə bağlı ciddi sınaqlarla üzləşdiyimiz bu çətin günlərdən də məhz düzgün yürüdülən mübarizə strategiyası və Prezident-Xalq həmrəyliyi sayəsində qurtulacağıq.

**- Cənab Nazir, Azərbaycan Polisi 102-ci ildönümünü ənənəvi olmayan dönəmdə-qlobal pandemiyanın kütləvi fəsadlarına qarşı aparılan mübarizə şəraitində qeyd edir. Ötən 4 aya yaxın dövr üçün sərt karantin rejimində Polis fəaliyyətinin ilkin nəticələrini necə qiymətləndirirsiniz?**

- Öncə bir məqama xüsusi diqqət ayırmaq istərdim. Həqiqətən də, pandemiya elə qlobal fəsadlar və kəskin problemlər yaradıb ki, onun ağır nəticələri bütün dünyada özünü hiss etdirir.

Ötən aylar ərzində fövqəldövlətlərin koronavirus qarşısında aciz qaldığını, ən güclü səhiyyə sisteminə malik ölkələrdə insanların müalicəsi üçün xəstəxanaların çatışmadığını, dünya iqtisadiyyatında aparıcı rola malik dövlətlərin ciddi böhranla, vətəndaşlarının isə böyük sosial çətinliklərlə üzləşdiyini müşahidə etdik. Bu acınacaqlı mənzərə təəssüf ki, hər gün daha da kəskinləşir.

Bu bəla Azərbaycandan da yan keçməyib. Mart ayından etibarən ölkədə karantin rejimi tətbiq olunub və müəyyən dövrlərdə daha da sərtləşdirilib. Möhtərəm Prezident ilk gündən pandemiyanın yarada biləcəyi çətinlikləri düzgün müəyyənləşdirdi və preventiv tədbirlərlə koronavirusun tibbi, iqtisadi, sosial, psixoloji fəsadlarına qarşı sistemli mübarizə strategiyası formalaşdırdı. Qabaqlayıcı addımların atılmasına dair konkret göstərişlər verdi. Təsadüfi deyil ki, martın sonlarında elan olunmuş və aprel ayından icrasına başlanan sosial-iqtisadi dəstək proqramı sayəsində indiyədək ölkə iqtisadiyyatına, sahibkarlara, işsiz vətəndaşlara, aztəminatlı təbəqələrə və digər həmvətənlərimizə dövlət tərəfindən 3,5 milyard manatdan artıq vəsait ödənmişdir.

Həmin sosial-iqtisadi dəstək kampaniyası isə tibbi müdafiə tədbirləri ilə paralel aparılırdı. Qısa müddətdə ölkənin səhiyyə sisteminin infrastruktur və mütəxəssis bazası pandemiya dövrünə uyğunlaşdırıldı, təkmilləşdirildi, yeni modul xəstəxanalar istifadəyə verildi.

Bu prosesdə Birinci vitse-prezident xanım Mehriban Əliyevanın ilk gündən göstərdiyi təşəbbüslər və səylər, aidiyyatı dövlət orqanları rəhbərlərinin iştirakı ilə keçirdiyi müşavirələrdə qəbul edilən qərarlar pandemiya ilə mübarizənin səmərəliliyinin artmasını şərtləndirdi, habelə Heydər Əliyev Fondunun ölkə boyu təşkil etdiyi böyük humanitar dəstək aksiyaları xalqımız tərəfindən minnətdarlıqla qarşılandı.

Ölkəmizin pandemiyaya qarşı mübarizə strategiyası beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Bütün bunlar xalqımızda dövlətə, iqtidara həm etimadı yüksəldir, həm də dövlət başçısının siyasətinin alternativsizliyini təsdiq edir. Nəticə etibarilə, Prezident İlham Əliyevin «Biz birlikdə güclüyük!» çağırışı ümummilli səfərbəredici qüvvəyə çevrilib və vətəndaşlarımız bu bəladan xilas yolunda öz Liderinin ətrafında daha sıx birləşib. Ölkə rəhbərinə son aylarda ünvanlanan on minlərlə vətəndaş məktubları da bu həqiqəti tam təsdiqləyir.

Sözügedən sahədə digər dövlət strukturları kimi daxili işlər orqanları da ölkə rəhbərinin müəyyənləşdirdiyi strateji prinsiplər əsasında fəaliyyət göstərir. Bu müddətdə polisin işinin ilkin nəticələri barədə mənim rəyimə gəldikdə isə hesab edirəm ki, bunu ictimaiyyət və kütləvi informasiya vasitələri daha dolğun və obyektiv verə bilər. Çünki həmişə olduğu kimi bu dövrdəki fəaliyyətimiz də sizlərin gözü önündə, geniş ictimai nəzarət altında həyata keçib. Sözsüz ki, xidmətimizdə müəyyən nöqsanlar var və onların aradan qaldırılması üçün müvafiq tədbirlər görürük. Ümumilikdə isə cənab Prezident Daxili İşlər Nazirliyinin, onun təşkilati strukturlarından olan polisin və Daxili Qoşunların fəaliyyətini yüksək qiymətləndirir ki, bu da bizim üçün ən böyük mükafatdır.

**- Cənab Nazir, bu prosesdə daxili işlər orqanlarının fədakarlığı, şəxsi heyətinin əzmkarlığı, gecəli-gündüzlü gərgin fəaliyyəti ictimaiyyət tərəfindən yüksək dəyərləndirilir, tam müsbət qarşılanır…**

- Nazirliyə vətəndaşlar tərəfindən göndərilən çoxsaylı məktublar, teleqramlar, eləcə də elektron ünvanımıza daxil olan mesajlar, xüsusən ölkə KİV-nin sağlam mövqeyi həyata keçirdiyimiz tədbirlərin razılıqla qarşılandığını sübut edir. Bu ədalətli, obyektiv münasibətə və məhdudiyyət tədbirlərini anlayışla qarşılayıb dəstəklədiklərinə görə Daxili İşlər Nazirliyinin bütün şəxsi heyəti adından ölkə ictimaiyyətinə, media mənsublarına təşəkkürümüzü bildiririk.

Nazirlər Kabinetinin müvafiq qərarı ilə tətbiq edilən xüsusi karantin rejimi dövründə hərəkət məhdudiyyətlərini tənzimləyən qaydalara riayət olunmasına ölkə boyu nəzarətin həyata keçirilməsinə bütün şəxsi heyətimiz səfərbər olunub. Daxili işlər orqanlarının əməkdaşları, sıravisindən ali rəis heyətinədək hər biri mart ayından etibarən gücləndirilmiş iş variantında və bundan irəli gələn gərgin iş rejimində çalışır. Açıq deyək, həyatlarını bəzən infeksiyaya yoluxma riski altına qoyur, paytaxtda və bölgələrdə, o cümlədən müvəqqəti postlarda məlum qaydaların təmini və qarşıya qoyulmuş xidməti tapşırıqların icrası üçün yorulmadan səy göstərirlər.

Digər tərəfdən, bildiyiniz kimi, hərəkət məhdudiyyətlərinin pozulmasına görə fiziki, hüquqi və vəzifəli şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar və Cinayət məcəllələrində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar. Bu halların müəyyənləşməsi üçün yol-patrul, post-patrul xidmətlərinin əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları davamlı tədbirlər görürlər. Paytaxtda və sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq olunan digər inzibati ərazilərdə əhalinin sıx olduğu yerlər tam nəzarətə götürülüb.

Lakin xüsusi karantin rejiminin pozulması halları təəssüf ki, hələ də qeydə alınır. Yoxlamalar zamanı müvafiq icazə olmadan yaşayış yerlərini tərk edən, postlardan qanunsuz olaraq keçməyə cəhd göstərən, fərdi qoruyucu vasitələrdən istifadə ilə bağlı tələbləri pozan insanlar, iaşə müəssisələri üçün elan edilən qaydalara riayət etməyən obyekt sahibləri, lüzumsuz yerə nəqliyyat vasitələrindən istifadə edən sürücülər və digər pozuntular aşkarlandıqda polis əməkdaşları tərəfindən həmin şəxslərə İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokol tərtib edilərək onlar məsuliyyətə cəlb olunurlar.

**- Şəxsən Siz pandemiyaya qarşı mübarizə tədbirlərində vətəndaşlarımızın iştirakını, onların bu prosesə münasibətini necə dəyərləndirirsiniz?**

-Vətəndaşlarımız adi və sərt karantin rejimləri üçün müəyyən edilmiş qaydalara bütövlükdə riayət edirlər. Əhalinin mütləq əksəriyyəti sosial izolyasiyanın saxlanılması, məhdudiyyətlərə və sanitar-gigiyenik şərtlərə əməl edilməsi, lüzum olmadan yaşayış yerinin tərk edilməməsi və bu kimi digər tələblərə əməl edir. Lakin onu da vurğulayım ki, vətəndaşlarımızın bir qismində şəxsi səhlənkarlıq, məsuliyyətsizlik hallarına rast gəlindi və tətbiq edilən inzibati cərimələr bu cür münasibətdən ortaya çıxan, eyni zamanda, ailələrinin, ətraflarının xəstəliyə yoluxmasına şərait yaradan acı həqiqətin nəticəsidir. Mən bu istiqamətdə də möhtərəm Prezident İlham Əliyevin və xanım Mehriban Əliyevanın davamlı çağırışlarını, şəxsi nümunələrini xüsusilə əhəmiyyətli sayıram. Bu örnəklər ictimaiyyətdə ciddi profilaktik təsir yaratdı, böyük maarifçilik dalğasına çevrildi.

Sərt karantin rejimi nə deməkdir? İnsanlar pandemiyaya yoluxmamaq üçün evində qalsın, ətraf mühitdən təcrid olunsun və beləliklə də sağlamlığını təmin etsin. Əlbəttə ki, karantin ən effektiv mübarizə üsulu deyil, ancaq dünyada bundan daha yaxşı qoruyucu metod da tapılmayıb. Cərimələr də əslində, insanları bu qaydaları pozmaqdan çəkindirən səmərəli vasitədir. Yəni, cəriməyə məruz qalmamaq düşüncəsi tək bir insanı deyil, həm də onun yoluxdura biləcəyi digərlərini xilas edir.

Bu həqiqəti daxili işlər orqanlarının əməkdaşları aylardır ki, əhaliyə çatdırırlar. Bizim əsas işimiz cərimə yazmaq deyil və xatırladım ki, qaydaları ilk dəfə pozanların əksəriyyətinə heç cərimə də yazılmayıb, onlara xəbərdarlıq edilib.

Müxtəlif istiqamətlər üzrə monitorinqlər də aparırıq. Təsəvvürünüzə gətirin, ictimai nəqliyyatda hərəkət edən sərnişinlərin bəzən yarısı maskadan istifadə etmir. İaşə obyektlərində, açıq və qapalı məkanlarda sosial məsafə çox vaxt qorunmur. Son günlər yoluxmaya məruz qalan insanların sayının artması da məhz belə səhlənkarlıqların nəticəsi kimi meydana çıxır. Yaxud icazəsi olmadığına görə şəhəri tərk etmələrinə imkan verilməyən, ancaq postlardan yayınıb, ara torpaq yolları ilə avtomobillərdə hərəkət etməyə cəhd edən yüzlərlə şəxsi hamı gördü.

Sosial şəbəkələrdə, mesajlaşma tətbiqlərində əhali arasında xof, vahimə yaradan yalan məlumatlarla da hər gün rastlaşırıq. Daxili işlər orqanları bu kimi halları, - əslində o həm də cinayət faktlarıdır, - müəyyən edən müasir texnikaya malikdir və qeyd etdiyim faktlar dərhal müəyyənləşdirilərək lazımi hüquqi tədbirlər görülür.

Son günlər ölkə ictimaiyyəti, deputatlar, ziyalılar açıqlamalarında karantin rejiminin tələblərinin pozulmasına, maska taxmamağa görə polisin daha sərt tədbirlər görməsini istəyirlər. Bu fikirlər, əlbəttə, təbii qarşılanır və polis bu işin öhdəsindən gəlir. Ancaq daxili işlər orqanlarının əməkdaşları hər bir məkanda, hər bir məhəllədə sutkalıq nəzarət həyata keçirə də bilməz… Bu nəzarət Prezidentimizin dediyi kimi ümumxalq işinə çevrilməlidir.

Daxili İşlər naziri olaraq ictimaiyyətə müraciət edib bir daha bildirmək istərdim ki, bu cür neqativ hallara qarşı mübarizə yalnız rəsmi çərçivədə və polis müdaxiləsi ilə aparılmamalıdır. Biz bu ürək ağrıdan prosesdə ictimai qınağın, məzəmmətin və nəzarətin artırılmasını çox vacib sayırıq. Əgər vətəndaşlarımız öncə özləri qaydalara əməl edib, sonra da ətrafdakıların bu tələblərə riayət etməsinə çalışsalar, həmçinin tələblərə zidd davranışları müəyyənləşdirib çəkinmədən məlumat versələr bu prosesdə müsbətə doğru dönüş yaranar. Faktlar sübut edir ki, ictimai nəzarət bəzən elə rəsmi nəzarət qədər təsirli olur.

Ümumilikdə, sərtləşdirilmiş karantin rejimində vətəndaşlarla polis əməkdaşları arasında əsasən səmimi, qarşılıqlı etimada əsaslanan, təəssübkeşlik ovqatlı münasibətlər mövcuddur və davam edir. Bu həmrəyliyi, işbirliyini yüksək qiymətləndirirəm və əminəm ki, əlaqələrimiz daha da möhkəmlənəcək.

**- Cənab Nazir, cinayətkarlığa qarşı mübarizədə vəziyyət necədir?**

- Azərbaycan cinayətkarlığa qarşı mübarizədə, asayişin və əmin-amanlığın qorunması sahəsində öncül dövlətlər sırasında yer alır. Respublikamız bu gün dünyanın təhlükəsiz ölkələrindən biri, sabitlik adası kimi tanınır. Vətəndaşlarımızın dinc həyatı etibarlı qorunur, özlərini güvənli hiss edirlər. Hesab edirəm ki, bu fakt son 17 ildə Prezident İlham Əliyevin müdrik, uzaqgörən siyasəti nəticəsində əldə olunan ən mühüm uğurlardandır.

*Ardı 4-cü səhifədə*

# 102 İLLİK ŞƏRƏF SALNAMƏSİ

*Əvvəli 3-cü səhifədə*

Son dövrlərin statistikası da bunu sübut edir.

2003-2017-ci illərdə 21 mindən artıq cinayətkar qrup və dəstə zərərsizləşdirilmiş, əllərdə qanunsuz saxlanılan 16 minə yaxın odlu silah yığılmış və onun tətbiqilə törədilən cinayətlərin sayı 1,3 dəfə azalmışdır.

Cinayətlərin orta hesabla 87 faizinin açılması təmin olunmuş, axtarışda olan 55 mindən artıq təqsirləndirilən şəxs tutulmuş, qanunsuz dövriyyədən 11 tona yaxın narkotik vasitə çıxarılmışdır. Azərbaycanda əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı bu gün də əksər Avropa dövlətləri ilə müqayisədə xeyli azdır.

Davos Forumunun son hesabatına əsasən, Azərbaycan mütəşəkkil cinayətkarlığa qarşı mübarizə indikatoru üzrə 141 ölkə arasında 18-ci, polis orqanlarına əhalinin etibarı göstəricisinə görə 30-cu yerə yüksəlib.

Göründüyü kimi, respublikanın hüquq mühafizə və xüsusi xidmət orqanlarının səylərinin vahid məqsəd üzərində cəmləşməsi sayəsində, cinayətkarlığa qarşı mübarizədə əhəmiyyətli nəticələr əldə edilir, bütün kütləvi tədbirlərdə asayiş və təhlükəsizlik yüksək səviyyədə qorunur. Hədəfimiz əldə olunmuş nəticələri daha da yaxşılaşdırmaqdır.



**- Cənab Nazir, son illərdə Prezident İlham Əliyev tərəfindən aparılan islahatlar dövlət strukturlarının fəaliyyətində də köklü dəyişikliklərə, mühüm yeniliklərə rəvac verib. Bu islahatlar dalğası Daxili İşlər Nazirliyində hansı nəticələrlə müşayiət olunub?**

- Son illər ölkəmizdə islahatlar yeni, daha dinamik mərhələyə qədəm qoyub. Təsadüfi deyil ki, Azərbaycan xarici reytinq göstəricilərinə görə dəfələrlə «ən islahatçı ölkə» elan edilib, bu sahədə fəaliyyətin səmərəliliyi və nəticələri beynəlxalq miqyasda təqdir olunub.

Prezidentin hər bir dövlət strukturuna konkret tələbi var. Fəaliyyət davamlı surətdə təkmilləşməli, müasirləşməli, yeni dövrün çağırışlarına uyğunlaşdırılmalıdır. İslahatların əsas məramı isə vətəndaş məmnunluğunu artırmaqdır.

Daxili İşlər Nazirliyində, eləcə də tabeliyindəki struktur qurumlarda aparılan islahatlar da miqyaslıdır. Bu isə nəticə baxımından fəaliyyətin effektivliyinin yüksəlməsinə xidmət edir və dövlət başçısının müvafiq tapşırıqları, təklifləri ümumi işimizə əhəmiyyətli töhfələr verir.

Həmçinin, ölkəmizdə aparılan geniş quruculuq işləri daxili işlər orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, infrastrukturunun müasirləşdirilməsi, maddi-texniki təminatının, şəxsi heyətin məişət və xidmət şəraitinin yaxşılaşdırılması istiqamətində əhəmiyyətli addımların atılmasına əlverişli şərait yaradıb.

Bu gün polis minlərlə yeni nəqliyyat vasitəsi, qabaqcıl texnologiya və avadanlıqla təchiz edilmiş mobil dövlət qurumudur. Elektron xidmətlər, veb-saytlar, qaynar xətlər, «ASAN xidmət» mərkəzlərində fəaliyyət - vətəndaş məmnunluğunun təmin edilməsinə yönəlib. Bütövlükdə bu və digər innovasiyalar xidməti fəaliyyətin səmərəsini qat-qat artırıb.

**- Azərbaycan Polisinin 102-ci ildönümü ərəfəsində Sizinlə görüşürük. Elə Sizin Daxili İşlər naziri təyin olunmağınızdan da bir il ötür. Bu söhbətin Sizin həm də mətbuata verdiyiniz ilk geniş müsahibə olduğunu nəzərə alaraq, ötən bir illik dövrlə bağlı təəssüratınızı və fəaliyyətinizdəki əsas hədəfləri oxucularla bölüşməyi xahiş edərdik...**

- Cənab Prezidentin, Ali Baş Komandanın tapşırıq və göstərişlərini icra etməyi, nazir kimi funksiyalarımı tam və yüksək səviyyədə həyata keçirməyi əsas hesab edirəm. Dövlət başçısı mənə böyük etimad göstərib, bu etimadı doğrultmaq, qarşıya qoyulan vəzifələrin icrasını təmin etmək borcumuzdur.

Fəaliyyət hədəflərim barədə sual verdiniz. Ölkə rəhbərinin daxili işlər orqanları və mənim üçün müəyyən etdiyi başlıca hədəflər aydındır: Daxili işlər orqanlarının qloballaşan dünyanın yeni çağırış və təhdidlərinə adekvat cavab verməyə hazır olması, cinayətkarlığa qarşı mübarizəninin təkmilləşdirilməsi, kriminogen duruma nəzarətin gücləndirilməsi, ictimai sabitliyin davamlı olaraq möhkəmləndirilməsi, fəaliyyətimizlə vətəndaş məmnunluğunun artırılması, bütövlükdə cəmiyyətdə polisin nüfuzunun daha da yüksəldilməsi və daha peşəkar, qətiyyətli, günün tələblərinə cavab verən kadrların hazırlanması əsas hədəflərdəndir.

Peşə bayramımız ərəfəsində Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə 26 əməkdaşımız dövlət mükafatlarına, 3 rəhbər vəzifəli şəxs ali xüsusi rütbəyə layiq görülüb. Xidməti fəaliyyətimizə verilən bu yüksək dəyərə görə bütün şəxsi heyət adından dövlət başçısına dərin minnətdarlığımı bildirirəm.

Azərbaycan Polisi Prezident İlham Əliyevin, Ali Baş Komandanın inam və etimadını öz peşəkar xidməti ilə doğrultmaq üçün bundan sonra da var qüvvəsilə çalışacaq.

*Müsahibəni apardı:*
*İxtiyar Hüseynli*

# TANINMIŞLARIN TƏBRİKİ

Çətin və sınaqlarla dolu dövlətçilik tariximizdə öz yeri, öz dəst-xətti olan polisimizi peşə bayramı münasibətilə təbrik edənlərin sıralarında sənət adamlarını, şairləri, yazıçıları, dövlət və hökumət nümayəndələrini görməkdən qürur hissi keçirdik. Bu illər ərzində amalımız yalnız və yalnız dövlətçiliyə, xalqa sədaqətlə xidmət oldu. Sabitliyimizə xor baxanlar araya nifaq salıb qardaşı-qardaşa qırdırmaq istəyəndə, tökülən qanlar hesabına qazandığımız müstəqilliyimizi itirmək təhlükəsi ilə üzbəüz qalanda bu xalqın səbrinə, dözümünə söykənib ondan güc aldıq. Milli mənlik qürurumuzun, min illər boyu qoruyub-saxladığımız mənəvi dəyərlərimizin də keşiyində durduq. Gəncliyimizi və gələcəyimizi təhdid edən bəlalarla mübarizədən bir addım belə geri çəkilmədik. Çünki *Ustadımız deyib heçdir Vətənsiz can, Azərbaycan!*

Bütün çətinliklərə baxmayaraq, daha böyük qələbələr qazanmaq üçün inadla, inamla addımlayıb Vətənimizi aydın sabahlara qovuşdurmaq niyyətindəyik. Tək deyilik, gücsüz deyilik. Cümhuriyyət yadigarı kimi çox ağır sınaqlardan keçsək də, bu gün ayaq üstəyik. Sıramız günü-gündən Vətən sevdalı oğullarla sıxlaşır.

102- il. Bu münasibətlə bizi muğamlarımıza, xalq mahnılarımıza yeni nəfəs qatan, gözəl ifaçılıqları ilə milli musiqi mədəniyyətimizə töhfələr verən, sevilən muğam ustaları fikir tariximizin formalaşmasında, ədəbiyyatımızın dünyaya tanıdılmasında əvəzsiz xidmətləri olan qələm sahibləri də təbrik edirlər.



**Xalq artisti, "Şöhrət", "İstiqlal" və "Şərəf" ordenli, professor Arif Babayev:**

Polisi o adamlar sevmir ki, onlar həmişə qanun pozmağa meyillidirlər. Biz çox çətin günlər görmüşük. Nə zillətlər çəkmişik onu bir Allah bilir. Yaxşı xatırlayıram, o ağrılı illərdə polis həm Qarabağda döyüşürdü, həm asayişi qoruyurdu, həm də cinayətkarlıqla mübarizə aparırdı. Neçə-neçə polislərimiz şəhid oldu. Mən özüm Qarabağlıyam, bunu deməsəm olmur. Bu gün atəşkəs olsa da, müharibə şəraitində yaşayırıq. Ölkəmizdə əmin-amanlıq, sabitlik var. Bunlara görə biz hər birimiz Azərbaycan Polisinə minnətdarıq.



Bu gün dünyanı cənginə almış koronavirus pandemiyası ilə mübarizədə həyata keçirilən karantin tədbirlərində polis əməkdaşlarının fədakarlığını da hər kəs görür. Canını, qanını Vətənə xidmətə hər edən polislərimizlə fəxr edirik. Ömür vəfa etsin Azərbaycan Polisinin yaranmasının növbəti ildönümünü Qarabağımızda qeyd eyləyək.



**Xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin katibi, "Şöhrət" ordenli Çingiz Abdullayev:**

-Əziz dostlar, əziz polislərimiz sizi peşə bayramınız münasibətilə səmimi qəlbdən təbrik edirəm. Daxili işlər orqanları yarandığı gündən bu günə kimi şərəfli döyüş və xidmət yolu keçib, dövlətin əsas sütunlarından birinə çevrilməyi, xalqın isə sevgisini, inamını, etibarını qazanmağı bacarıb. Müstəqillik əldə etdiyimiz 30 ildə də həmişə dövlətə və xalqa sədaqətlə xidmət etmisiniz. Cinayətkarlığa, qanunsuzluğa, haqsızlığa qarşı qətiyyətli mübarizə aparmısınız. Fəaliyyətiniz hər bir Azərbaycan vətəndaşı üçün dəyərlidir, qürurvericidir. Bu gün bu çətin və həssas dönəmdə də bizi qoruyursunuz. Həyatınızı riskə ataraq həyat qurtarırsınız. Bizi necə qoruduğunuzun günbəgün, demək olar ki, hər an şahidi oluruq. Arzu edirəm ki, pandemiya dövründən daha az itkilərlə çıxaq və tezliklə normal həyata qayıdaq. Sizlərin zəhməti, fədakarlığı sayəsində ölkəmizdə hökm sürən əmin-amanlıq içərisində həyatımızı davam etdirək. Sizi bir daha Azərbaycan Polisinin yaranmasının 102-ci ildönümü münasibətilə təbrik edir, 103-cü ildönümünü Şuşada qeyd etməyinizi arzulayıram.



**Xalq artisti, Prezident mükafatçısı, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti Nəzakət Teymurova:**

-Ölkəmizdə bu gün təhlükəsizliyin, sabitliyin qorunmasında cinayətkarlığa qarşı mübarizədə polisin rolu danılmazdır. Dövlət başçımızın yürütdüyü siyasət nəticəsində respublikamızda sabitlik, əmin-amanlıq hökm sürür, qanunun aliliyi təmin edilir.

COVID-19 koronavirus pandemiyasının yayıldığı bu çətin günlərdə polisin fəaliyyəti diqqətimizdən yayınmadı. O, min illər boyu qoruyub-saxladığımız ənənələrimizə də sadiqliyini nümayiş etdirdi. Köməksizlərin, darda qalanların köməyinə çatdı.

Bu gün Azərbaycan Polisi 102 yaşını qeyd edir. Mən də bu gözəl gün münasibətilə onları təbrik edir, xoş günlər arzulayıram.



**Xalq artisti Gülyaz Məmmədova:**

-Mən polislərimizə ən birinci səbr arzulayıram. Əgər onlar olmasa, hər şey olduqca çətin olar. Hər gün onların səbrlə bizim yollarda hərəkəti nizamlamalarının şahidi oluram. Ən təəccüblüsü isə böyük nəqliyyat axınını idarə edən zaman polislərin üzündə təbəssümün olması, hər bir sürücüylə təmkinli davranmalarıdır.

Bu gün çətin günlərdə, pandemiyanın yayıldığı bir vaxtda polislərimizin asayişin keşiyində mətin durmaları, vətəndaşların öz canları bahasına qorumaları göz önündədir. Bu şərəfli və olduqca çətin peşənin məsuliyyətini anlayan Vətən övladlarımıza sağlamlıq və güc arzulayıram. Bayramınız mübarək!

**Xalq artisti Gülyanaq Məmmədova:**

-Hər peşənin fərqli xüsusiyyətləri, üstünlükləri və çətinlikləri var. Polisin xidməti isə öz çətinliyi və məsuliyyəti ilə daha çox seçilir. Axşam hər kəs evində rahat yatır. Polis isə yuxusuz qalır, asayişi qoruyur, cinayətkarlığa qarşı gecə-gündüz mübarizə aparır. Polis qardaşlarımız yuxusuz gecələri xidməti vəzifə borcu hesab edir, xalqa və qanuna məsuliyyətlə xidmət etməyi özlərinə şərəf bilirlər. Bu gün hər birimiz polisə arxa-dayaq olmalıyıq.

Bu bayram münasibətilə onları təbrik edir, çətin və şərəfli peşələrində uğurlar arzu edirəm.

Bayramın mübarək, Azərbaycan Polisi!



**Beynəlxalq müsabiqələrin qalibi, Azərbaycan Milli Konservatoriyasının müəllimi Pərviz Fərhadov:**

-Bu gün polisin fəaliyyətinə kölgə salmaq, onları cəmiyyətin gözündə aşağılamağa çalışanların məqsədi hər kəsə bəllidir. Polisimiz bu Vətənin övladı kimi hər çətinliyin öhdəsindən layiqincə gəlib, təhlükəsizliyimizi qoruyur. Onların sayəsində Azərbaycan təkcə Qafqazın deyil, dünyanın ən sabit ölkəsidir. Biz polisimizi sevirik.

Ölkəmizdə asayişi, sabitliyi qoruyan mərd-mübariz oğulları, Azərbaycan Polisinin yaranmasının 102-ci ildönümü münasibətilə təbrik edir, onlara sağlamlıq, xoşbəxtlik, dözüm arzulayıram.

# AZƏRBAYCAN POLİSİNİN TARİXİNDƏ HEYDƏR ƏLİYEV İMZASI

***“Azərbaycanın iqtisadi, elmi, mədəni, intellektual potensialı ilə yanaşı, daxili işlər orqanları sistemində də böyük potensial vardır. Qeyd edim ki, müstəqilliyi təmin etmək üçün bir neçə dövlət atributu mövcuddur. Əgər onların biri ordudursa, digəri müstəqil xarici siyasətdirsə, o birisi də Daxili İşlər Nazirliyi, polis orqanlarıdır ”***

**Heydər Əliyev,**
**Azərbaycan xalqının ümummilli lideri**



Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik respublikamızın müstəqillik tarixinin ən mühüm nailiyyətlərindən biridir. Təbii ki, sabitliyin əldə olunması o qədər də asan başa gəlməmişdir. Ölkəmiz öz dövlət müstəqilliyini əldə etdikdən sonra çox böyük çətinliklərlə üzləşmişdi. Həmin dövrün çətinliklərinin əsas hissəsi, məhz Azərbaycan Polisinin üzərinə düşürdü. Polis qanunsuz silahlı dəstələrlə mübarizə aparırdı. Qarabağ müharibəsinin ilk illərində Azərbaycanın nizami ordusu yox idi, ona görə də ön cəbhədə torpaq uğrunda polis vuruşurdu, şəhidlər verirdi.

Ulu öndər Azərbaycan Polisinin bu dövrdəki xidmətlərini çox yüksək qiymətləndirmişdir: “Azərbaycan Polisi şanlı bir tarix keçibdir. Xüsusən, 1988-ci il hadisələri başlayandan sonra, Qarabağ müharibəsində Azərbaycan Polisinin 932 nəfər əməkdaşı şəhid, 681 nəfəri isə əlil olubdur. Eyni zamanda, 68 nəfər polis əməkdaşı "Milli Qəhrəman" adına layiq görülübdür. Bu, böyük rəşadət, qəhrəmanlıq və dövlətçiliyə sədaqət nümunəsidir.”

Ölkə daxilində hakimiyyət uğrunda gedən mübarizənin yaratdığı vətəndaş qarşıdurması, xarici qüvvələrin dəstəklədiyi Ermənistanın Azərbaycana qarşı təcavüzü yeni yaranmış respublikanı uçuruma doğru sürükləyirdi. Belə bir zamanda, dövlətçilik, müstəqillik təhlükə altında qalanda ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından, yəni 1993-cü ilin iyun ayının 15-dən sonra xaosdan qurtuluşa keçidin əsası qoyuldu, ölkənin ictimai-siyasi həyatında və kriminogen durumda köklü müsbət dəyişikliklər baş verdi. İntensiv surətdə həyata keçirilən tədbirlərdən biri də hüquq mühafizə, o cümlədən daxili işlər orqanlarının sıralarının saflaşdırılması, dövlətə, xalqa sədaqətli şəxsi heyətin formalaşdırılması, peşə borcunu, qanunun aliliyini hər şeydən üstün tutan əməkdaşların xidmətə cəlb edilməsi idi.

Ulu öndər 1994-cü il aprelin 29-da Nazirliyin rəhbər heyətinin iştirakı ilə keçirilən müşavirədə xidməti fəaliyyətdə yol verilmiş nöqsan və çatışmazlıqları açıq şəkildə qeyd edərək, onların tez bir zamanda aradan qaldırılması üçün dəyərli tapşırıq və tövsiyələrini verdi. Onun şəxsi nəzarəti ilə qısa müddətdə bu vəzifələr reallığa çevrildi. Ümummilli liderin 1994-cü ilin avqust ayında imzaladığı “Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında” fərman isə bu sahədə fəaliyyətin təşkilati-hüquqi bazasının və gələcək uğurların möhkəm təməlini qoydu. Eyni zamanda, mötəbər beynəlxalq təşkilatların, Avropa ekspertlərinin rəyləri nəzərə alınmaqla 28.10.1999-cu ildə “Polis haqqında”, “Əməliyyat-axtarış fəaliyyəti haqqında” qanunlar, 30.06.2001-ci ildə “Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında” və 18.07.2001-ci il tarixdə isə “Daxili işlər orqanlarında xidmətkeçmə haqqında” Əsasnamələr qəbul edildi.

Ümummilli lider Heydər Əliyev tərəfindən daxili işlər orqanlarının fəaliyyəti ilə bilavasitə bağlı olan, o cümlədən insan hüquq və azadlıqlarının həyata keçirilməsi mexanizmlərini tənzimləyən 34 qanun, 100-dən çox fərman və sərəncam imzalandı. Nazirlik sistemində islahatlar aparılaraq yeni qurumlar yaradıldı.

Məhz Heydər Əliyevin rəhbərliyi altında hüquq mühafizə orqanları respublikada tüğyan edən mütəşəkkil cinayətkarlığa, sabitlik üçün təhlükə doğuran zərərli meyillərə qarşı uğurlu mübarizəyə, qanunsuz silahlı birləşmələrin zərərsizləşdirilməsinə başladılar. Vətəndaşlarımızın dinc, rahat yaşamaları üçün lazım olan şərait yarandı, onların dövlətə, hüquq mühafizə orqanlarına inamı daha da artdı, ictimai-siyasi, həmçinin kriminogen durum nəzarətə götürüldü.

Sabitliyin bərqərar edilməsi isə, öz növbəsində, islahatların aparılmasına, iqtisadiyyatın bərpasına və inkişaf etdirilməsinə əlverişli zəmin yaratdı. Xarici neft şirkətlərinin Azərbaycana inamını artırdı və 1994-cü ilin sentyabrında respublikamızda iqtisadi tərəqqiyə yol açan “Əsrin müqaviləsi” imzalandı.

Həyat göstərdi ki, Heydər Əliyevin milli maraqlarımızın təmin edilməsindəki qətiyyətli mövqeyi və yorulmaz fəaliyyəti ölkənin xaricində və daxildə olan düşmənlərimizi olduqca narahat edirdi. Onlar necə olursa-olsun Azərbaycanı bu yoldan döndərmək üçün müxtəlif vasitələrə əl atırdılar.

Məqsəd respublikadakı mövcud ictimai-siyasi sabitliyi pozmaq, süni qarşıdurmalar yaratmaq və son nəticədə ölkəni müstəqil inkişaf yolundan döndərmək idi. Ancaq ümummilli liderimiz 1994-cü ilin oktyabr və 1995-ci ilin mart aylarında baş verən dövlət çevrilişinə cəhdlərin qarşısını öz zəkasının, müdrikliyinin gücü, onu dəstəkləyən xalqının əzmi və iradəsi ilə aldı. Müstəqilliyimiz qorunub saxlandı, silahlı yolla hakimiyyətə gəlmək cəhdlərinə birdəfəlik son qoyuldu.

1994-cü il aprelin 29-da DİN-in rəhbər işçilərinin iştirakı ilə keçirilən müşavirədə Prezident Heydər Əliyev vurğulamışdı ki, “Daxili İşlər Nazirliyinin hər bir əməkdaşının sosial müdafiəsini təmin etməliyik. Bu əməkdaşlar ilk növbədə öz vəzifə borclarını şərəflə yerinə yetirməlidirlər, ikinci növbədə isə onların mənafeyi müdafiə olunmalıdır”.

Göründüyü kimi, ölkənin müqəddəratının həll olunduğu bir vaxtda belə Heydər Əliyev daxili işlər orqanları əməkdaşlarının qayğısına qalır və onların himayədarı olduğunu konkret qərarları ilə sübut edirdi. Onun xüsusi qayğısı sayəsində, 1993-cü illə müqayisədə 2003-cü ildə Nazirliyin büdcəsi 6 dəfə artmış, bu dəyişikliyin əsas qayəsini əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi, xidmət şəraitinin yaxşılaşdırılması, yeni informasiya texnologiyalarının tətbiqi və sair təşkil edirdi. Bundan başqa, Daxili İşlər Nazirliyinin 300-dən çox əməkdaşı və hərbi qulluqçusu ölkənin yüksək dövlət mükafatları ilə təltif edilmiş, o cümlədən “Milli Qəhrəman” adına, orden və medallara layiq görülmüşdü.

Bütün bunlar yalnız Heydər Əliyevin polad iradəsi, fenomenal peşəkarlığı, qətiyyəti və yüksək idarəçilik bacarığı sayəsində mümkün olmuşdur. Daxili işlər orqanlarının fəaliyyətini düzgün istiqamətə yönəldən, onu xalqa və dövlətə xidmət üçün səfərbər edən ulu öndərimiz nəticədə istəyinə çatdı: Daxildən saflaşan, təmizlənən daxili işlər orqanları və Daxili Qoşunlar Prezidentin inamını doğrultdu və ölkədə həyata keçirilən uğurlu islahatların təhlükəsizliyinin təminatçılarından biri oldu.

Respublika daxili işlər orqanlarının əməyini daim yüksək qiymətləndirən ulu öndər Heydər Əliyev 2002-ci ildə polisin peşə bayramında şəxsən iştirak edərək xidməti fəaliyyətlə bağlı dəyərli fikirlər söylədi. Eyni zamanda, nöqsanları göstərib tövsiyələrini verdi, vəzifələri müəyyənləşdirdi və nitqini bu sözlərlə bitirdi: ***“Daxili İşlər Nazirliyi, polis Azərbaycan dövlətçiliyinin keşiyində durub, bundan sonra da duracaqdır. Bir daha deyirəm, mən Azərbaycan Prezidenti kimi, Ali Baş Komandan kimi sizə etibar edirəm, sizə inanıram, sizə arxalanıram”.***

# VƏTƏNƏ XİDMƏTDƏ KEÇƏN ÖMÜR...

**Dünən nə az, nə çox, düz 36 ildir ki, daxili işlər orqanlarında, sözün əsl mənasında, “külüng” vuran polis polkovniki Rahib Qarayevin 60 yaşı tamam oldu.**



Rahib Qarayev barəsində ürəkdolusu danışmaq bizə ona görə asandır ki, polisdə xidmətə başladığı 1984-cü ildən o, “Mübariz keşikdə” qəzeti ilə əməkdaşlıq edib və bu gün də polis polkovniki rütbəsində, İdarə rəisi vəzifəsində çalışmasına baxmayaraq bu əməkdaşlığı davam etdirir. Qəzetimizin ştatdankənar müxbiri, eləcə də, sonralar 13 il çalışdığı Mətbuat Xidmətinin inspektoru, İnformasiya bölməsinin rəisi kimi də üzü Naxçıvandan bəri Azərbaycan Polisinin gərgin fəaliyyəti barədə hazırladığı publisistik yazılarla respublika ictimaiyyətini tanış edib. Torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə şücaət göstərən, yaralanan, əlil olan, şəhidlik zirvəsinə ucalan, ölkəmizdə sabitlik və əmin-amanlığın bərqərar olunmasında, cinayətkarlıqla mübarizədə qəhrəmanlıq nümayiş etdirən Azərbaycan Polisinə qara yaxanlar, çamur atanlar tərəfindən yazılan hədyanlara da tutarlı arqumentləri ilə hər zaman kəsərli cavab verib.

Bu gün o, DİN-in çox əhəmiyyətli struktur qurumlarından birinə - Şəxsi Heyətlə İş İdarəsinə uğurla rəhbərlik edir. Xidməti ölkə və DİN rəhbərliyi tərəfindən layiqincə qiymətləndirilib, “Vətən uğrunda” medalı ilə, “Qüsursuz xidmətlərə görə” medalın hər 3 dərəcəsi ilə, “Əla xidmətlərə görə” döş nişanı ilə, “Fəxri fərman”larla təltif olunub. Ailəlidir, 2 qızı, 2 nəvəsi var. Dəyərli həmkarımızı həm yubileyi, həm də Azərbaycan Polisinin yaranmasının 102-ci ildönümü münasibəti ilə təbrik edir, tutduğu məsul vəzifədə uğurlar diləməklə, "qələminiz əlinizdən düşməsin,-qəzetimiz- “Mübariz keşikdə” üçün Vətən sevdalı ürəyinizdən od götürən yazılarınızı gözləyirik, cənab polkovnik!",- deyirik.

**T.Hafiz**

# POLİSƏ İTHAF OLUNUR








*Vətənin dar günündə,*
*Səs veribdi səsinə.*
*Mübariz oğulların,*
*Qoşulub cərgəsinə*

*Andına sadiq qalıb,*
*Dilində haqq kəlməsi.*
*Cümhuriyyət yaşıdı,*
*Azərbaycan Polisi.*

*Asayiş keşiyində,*
*Dayanıbdır, mətindir.*

*Gecə-gündüz oyaqdır,*
*Xidməti çox çətindir.*

*Qorxu yoxdur gözündə,*
*Qan-qadalar görüb, O!*
*Könlünü bu Torpağa,*
*Bu Millətə verib, O!*

*Təhlükədən yaxınsan,*
*Bizə hər an, Polisim!*
*Səni görüm yüz illər,*
*Yaşayasan, polisim!*

**Hafiz Təmirov**

*Əsirgəməz canını,*
*Əgər girsə savaşa.*
*Mənim şanlı polisim,*
*Yaşa, yaşa, min yaşa!*

*Keşiyində dayanıb,*
*Qoruyur dövlətini.*
*İçdiyi anda sadiq,*
*Özü seçib çətini.*

*Həsr edibdi ömrünü,*
*Çox müqəddəs bir işə.*
*Komandanın əmrinə,*
*Müntəzirdir həmişə.*

*Ümidlidir sabaha,*
*Getdiyi yol doğrudur.*
*Azərbaycan Polisi,*
*Bu torpağın övladı,*
*Bu Vətənin oğludur!*

**Kamandar Eyvazlı**








# Hər iki cəbhənin bahadırları












*100-ü haqlayanların sırası hər saat, hər gün seyrəlir. Onların cərgəsində polis veteranları da var. Bu gün polisin 102 illiyini qeyd etmək sevincini bu tarix yaşıdları da yaşayır. Onların həyat yolu xalqa, dövlətə sədaqətləri hər birimizə örnəkdir. Hər iki cəbhənin qəhrəmanları bu həyatın keşməkeşli yollarından üzüağ çıxmağı bacaranlardır. Ürəyi Vətən eşqi ilə döyünən bu insanların bizdən umacağı isə sadəcə onlara göstərdiyimiz qayğı və məhəbbətdir.*

*100 yaşın astanasında olan 1941-1945-ci illər müharibəsi və polis veteranları Müseyib İlyasovun, Mehdi Mehdiyevin, Əli Hacıyevin, Əlikişi Cümşüdovun, Səfər Abdullayevin və Əzim İbrahimovun adları polisin tarixinə həkk olunub. Veteranlarımız daim ölkə və DİN rəhbərliyinin yüksək diqqət və qayğısını üzərlərində hiss edirlər.*

*"Polis çətin peşədir. Tutduğun vəzifədən asılı olmayaraq, göstərilən etimadı doğruldasan, gərək. Biz çox çətin günlər yaşamışıq, müharibənin ağrılı-acılı günləri bu gündə gözlərimiz önündədir. İndi isə müstəqil dövlətin vətəndaşı olmaq sevindiricidir. Sabitlik qorunur, ölkəmiz günü-gündən inkişaf edir, abadlaşır, gözəlləşir. Hər birimiz çalışmalıyıq ki, bu gözəlliklərin yaranmasında bizim də əməyimiz olsun",- deyib və dərindən bir ah çəkib ötənlərə nəzər salırlar.*

*Əlləri də, ürəkləri zəhmətlə bərkiyib bu dəyərli insanların. Təltif edildikləri orden və medallar, xatirələri özündə yaşadan şəkilləri ömürlərinin boşa keçmədiyini xatırladır.*

*Biz də öz növbəmizdə qocaman əsgərlərimiz, həmişəcavan polis həmkarlarımızı bayram münasibətilə təbrik edir, ömürlərinin bəxtiyar çağında onlara həmişə belə gümrah qalmağı diləyirik.*

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# AZƏRBAYCAN POLİSİ: HÜNƏR YOLU, MÜBARİZƏ TARİXİ

**Tariximizdə elə günlər var ki, onun bizə yaşatdığı qürur hissini bəlkə də ötən yüzillərdə yaşamamışıq. Yaratdığımız tarixi bəzən yazıya almağa ərinmişik və bu bizə illər sonra baha başa gəlib. Zəif düşmənlərin güclü hiylələrinin qurbanı olub birliyə, hürr olmağa gedən yolumuzdan yarımçıq dönmüşük. Dilimizə fars, zehnimizə ərəb damğası vuranları, əsl kimliyimizi bizə unutduranları tanıyanda isə ya gec olub, ya da ki, tarixin o üzündə qalan at üstündəki ruhumuz bizdən üz çevirib. Göylərdən gələn müqəddəsliyimiz "məndən ötdü"ləri deyib, sevinən qandaşlarımızı qoruya bilmədi, çünki qardaşın dar günündə ona arxa çevirmək həm də Tanrıya üsyan demək idi. Sahib olduğumuz dünyadan qəlpə-qəlpə qopduqca, acizləşdik, kimsəsizləşdik və böyük imperiyalardan geriyə isə hərəsi bir ovuc torpağa yiyələnmiş küskün qardaşlar qaldı...**



İyirminci yüzillikdə ruhumuza güneş kimi doğan o gün tarixin bütün uğursuzluqlarını bizə unutdurdu. Azərbaycan adlı cümhuriyyətin qurulması sanki böyük bir imperiyanın yenidən yaranması demək idi və bu sevinc dalğa-dalğa Türküstan ellərinə, ordan isə bütün dünyaya yayıldı.

Dünyanın sınaqlarla üzbəüz qaldığı o çətin dövrdə dövlət qurmaq bir yana, onu qorumaq üçün hər şeyini, hətta həyatını belə qurban verənlər 100 il sonra xatırlanacaqlarını yaxşı bilirdilər.

Yüz iki yaşlı cümhuriyyət və 29 yaşlı müstəqil Azərbaycan dövləti. İkisinin də taleyi, yazısı eynidi. İkisini də bu qoca millət qurdu, ikisi də olum və ölüm sınağı ilə üzbəüz qaldı. Və sonda ikisi də hürr oldu...

Cümhuriyyət yaşıdı... Bu ifadəni tez-tez eşidirik. İndi nəinki Azərbaycanda bəlkə də dünyada çox az sayda 100-ü haqlayan var. Amma bu gün cümhuriyyətin yadigarı olan Azərbaycan Polisi var və biz də onun sıralarında addımlayan xoşbəxtlərdənik.

İlk baxışdan qəribə görünsə də bu bir həqiqətdir və Azərbaycan Ordusunu Azərbaycan Polisi formalaşdırdı fikrini, bu gerçəkliyi danmaq olmaz. Torpaqlarımızın azadlığı uğurunda əlinə silah alıb erməni millətçilərinə qarşı döyüşən oğullara silahdan istifadə qaydalarını, ilk döyüş taktikasını da məhz polisdə can qoyan oğullarımız öyrətdi.

Ön cəbhədə düşmənin, arxa cəbhədə isə cinayətkarların gülləsinə sinəsini sipər edən həmkarlarımızın şücaətləri bəlkə də cild-cild kitablara sığmaz. Onlar öz qanlarıyla Azərbaycan Polisinin döyüş tarixini yazıblar. Torpaqlarımız uğrunda gedən döyüşlərdə 1695 həmkarımız və hərbi qulluqçumuz şəhidlik zirvəsinə ucalıb, 1710 nəfər ağır xəsarət alıb. Göstərdikləri fədakarlığa və şücaətlərə görə 68 nəfərə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Horadizin və ətraf kəndlərin azad edilməsində DİN Daxili Qoşunları və polis, sözün əsl mənasında, tarix yazdı. Bu qələbə cəbhədə döyüşçülər arasında inamı artırdı və polis yerini yenicə formalaşmağa başlayan orduya verib yenidən arxa cəbhədəki mübarizəsini davam etdirdi.

Aparılan islahatlarla daxildən saflaşan, təmizlənən Azərbaycan Polisi və onun ayrılmaz hissəsi olan Daxili Qoşunlar ulu öndərinin, Ali Baş Komandanının inamını həmişə doğruldub, təhlükəsizliyin təminatçılarından biri olub.

1994-cü ildən daxili işlər orqanlarında başlamış dönüş mərhələsi yalnız cinayətkarlığa qarşı effektiv mübarizə və kriminogen durumun tam nəzarətə götürülməsi ilə məhdudlaşmadı, həm də ən vacib sahələrdən biri - şəxsi heyətin mənəvi cəhətdən sağlamlaşdırılması və təmizlənməsi prosesi də vüsət götürdü.

Əldə edilən nailiyyətləri polisin 80 illiyi münasi-




bətilə şəxsi heyətə ünvanladığı təbrikdə dahi öndər belə vurğulamışdı:

"Azərbaycan Polisi dövlətçiliyimiz əleyhinə yönəlmiş cinayətkar qəsdlərin və başqa qeyri-konstitusion əməllərin, vətəndaş qarşıdurmasının, kütləvi və mütəşəkkil cinayətkarlıq təzahürlərinin, cəzasızlıq mühitinin aradan qaldırılmasında önəmli xidmətlər göstərmişdir... Əlamətdar haldır ki, daxili işlər orqanlarının şəxsi heyəti bütün bu proseslərdə Azərbaycan xalqının, Azərbaycan dövlətinin maraqlarını, özlərinin vətəndaşlıq borclarını və xidmətin mənafeyini hər şeydən üstün tutmuşdur".

Əbədiyaşar liderimiz Heydər Əliyev daxili işlər orqanlarının şəxsi heyətinin sosial müdafiəsini heç zaman diqqətdən kənarda qoymamışdır. Hələ hadisələrin ən qaynar dövründə - 1994-cü il aprelin 29-da DİN-in rəhbər işçilərinin iştirakı ilə keçirilən müşavirədə ulu öndər demişdi ki, "Daxili İşlər Nazirliyinin hər bir əməkdaşının sosial müdafiəsini təmin etməliyik. Bu əməkdaşlar ilk növbədə öz vəzifə borclarını şərəflə yerinə yetirməlidirlər, ikinci növbədə isə onların mənafeyi müdafiə olunmalıdır".

Ümummilli liderin daxili işlər orqanlarının xidmətlərinə verdiyi yüksək qiymətin məsuliyyətini, eləcə də gələcəyə ünvanlanmış strateji vəzifələr olduğunu aydın dərk edən şəxsi heyətimiz bu gün möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə günü-gündən inkişaf edən, dünyada söz sahibinə və böyük dövlətlərin etibarlı tərəfdaşına çevrilən ölkəmizdə əmin-amanlığın, sabitliyin keşiyində ayıq-sayıq dayanmaqla yanaşı, həm də bir vətəndaş kimi bu yüksəlişə öz töhfələrini verirlər. Ölkə rəhbərimizin təbirincə desək, əgər bu gün ölkəmizin iqtisadi potensialının artmasının əsas şərti olan sabitlik və ictimai təhlükəsizlik mövcud olmasaydı, onda hazırkı milli tərəqqidən söhbət gedə bilməzdi.

Bu gün cinayətkarlıqla, mübarizənin daha effektli aparılması, konstitusiyaya, qanunçuluğa ciddi əməl edilməsi, dövlətin maraqlarının etibarlı qorunması,




asayişin mühafizəsinin peşəkarlıqla həyata keçirilməsi, şəxsi heyətin nizam-intizamının gücləndirilməsi, polis-vətəndaş münasibətlərinin daha yüksək səviyyəyə qaldırılması kimi vəzifələr uğurla həyata keçirilir. Dövlət rəhbərinin təşəbbüsü ilə 2004-cü ildə qəbul olunmuş "Azərbaycan Respublikasında polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair" Dövlət Proqramı müasir dövrün tələbinə uyğun islahatların aparılmasında, maddi-texniki bazanın və şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsində mühüm əhəmiyyət kəsb etmişdir.

Respublikanın daxili işlər orqanlarının fəaliyyət göstəriciləri ildən-ilə yaxşılaşır. Ötən müddətdə bu strukturlar tərəfindən ölkədə asayişin mühafizəsi ağır, habelə geniş ictimai əks-səda doğurmuş cinayətlərin açılması, axtarışda olanların tapılıb-tutulması, narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınması, insan alverinə qarşı mübarizə və digər istiqamətlərdə həyata keçirilən əməliyyat-axtarış və istintaq tədbirləri uğurlu olmuşdur. Sözsüz ki,



respublikada hüquq qaydasının təmini işində qazanılan uğurların arxasında müxtəlif çətin şəraitlərdə xidmət aparan, vətəndaşların qanuni mənafelərini cinayətkar qəsdlərdən qoruyan, zəruri anda xidməti borcunu hər şeydən, hətta həyatından belə üstün tutan asayiş keşikçilərinin gərgin səyi və əzmkarlığı dayanır. Azərbaycan Polisi fəaliyyətini yeni dövrün tələblərinə uyğun şəkildə qurur və dövlətə, xalqa bağlılıq, xidməti öhdəliklərə məsuliyyətli yanaşma daxili işlər orqanlarının ictimai nüfuzunu daim artırır.

Bəli, 102 ilin Azərbaycan Polisi artıq dövlətçilik dəyərlərini hər şeydən üstün tutan, ən ali məqsədi Vətənə, xalqa, onun əmin-amanlığına, asayişinə xidmət etmək olan peşəkar hüquq mühafizə orqanı kimi formalaşıb. Əminik ki, Vətəninə, xalqına və Prezidentinə sadiq olan daxili işlər orqanları özünün zəngin təcrübəsi ilə həmişə olduğu kimi, bundan sonra da müstəqil dövləti daha da inkişaf etdirmək kimi milli ideyanın - ulu öndər Heydər Əliyevin əbədiyaşar amallarının həyata keçirilməsinə layiqli töhfələr verəcək, yaxın zamanda işğaldan azad ediləcək torpaqlarımızda asayişin və əmin-amanlığın keşiyində ayıq-sayıq dayanacaq.

Müstəqil Azərbaycanı qorumaq üçün hər bir əməkdaşı ölümün belə üstünə gözlərini qırpmadan yürüyən, həm içimizdən, həm də xaricdən Vətənimizin dayaqlarını sarsıtmaq istəyənlərlə mübarizə aparan Azərbaycan Polisinin sırası ötən illər ərzində necə ki, seyrəlmədi, bundan sonra da seyrəlməyəcək.

**Bayramımız mübarək!**

*Hafiz Təmirov,*
*fotolar Zeyni Hüseynovundur*

# Həm sevindik, həm də qürurlandıq...

**Hər birimiz Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda qəhrəmanlıqla mübarizə aparanları, xalqımızın azadlığını hər şeydən uca tutanları, bu yolda həyatlarını qurban verərək şəhidlik zirvəsinə ucalanları anmağa həmişə borcluyuq.**

Bu gün – Azərbaycan Polisinin yaranması günü münasibətilə bizi Aprel döyüşlərində həlak olmuş şəhidlərimizin ailə üzvlərinin, valideynlərinin təbrik etməsi həm qürurverici, həm də sevindiricidir.

Bu ötən illər ərzində daxili işlər orqanlarının əməkdaşları da onları gözdən uzaq, könüldən qıraq qoymadılar. Ziyarətlərinə gedib ağrılarına, acılarına şərik oldular. Bizə düşmənin qanlı caynağından əsir olan torpağın azad olunduqdan sonra necə sevindiyini, rahat nəfəs aldığını göstərən, sonuncu ümidimizi ölməyə qoymayan, bir millət kimi toparlansaq nəinki Qarabağı, 80 faizini itirdiyimiz Vətən torpaqlarını birləşdirməyə gücümüz çatacağına inandırıb şəhidlik zirvəsinə ucalan, əlil olan oğullarımızın yadigarlarının təbriklərini də "Mübariz keşikdə"nin bayram nömrəsində dərc etməyi özümüzə borc bildik.





**Şəhid Müşfiq Orucovun atası Arif Orucov:** "Bu gün 102 yaşını qeyd edən Azərbaycan Polisini təbrik edirəm. Xalqa və dövlətə xidməti ilə qürur duyan asayiş keşikçiləri də, sözün əsl mənasında, arxa cəbhədə döyüşürlər. Pandemiyadan əvvəl dəfələrlə şahidi olmuşam: Polislər məktəblərə gedib şagirdlərlə görüşüb, maarifləndirici söhbətlər aparıblar. Bu günümüzü, sabahımızı təhdid edən bəlalarla mübarizə aparan oğullarımıza hər birimiz dəstək olmalıyıq. Onların hər anı ölüm deməkdir. Hər bir polis əməkdaşı həm də bir əsgərdir. Unutmayaq ki, müharibə hələ bitməyib. Mən bir şəhid atası kimi Vətənimizin şanlı polisini təbrik edir, hörmətli nazirimiz, general-polkovnik cənab Vilayət Eyvazova Vətən görəvində uğurlar arzulayıram".

**Şəhid Fəxrəddin Qurbanlının atası Seyfəddin Qurbanlı:** "2018-ci ildə Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin və Binəqədi Rayon Polis İdarəsinin əməkdaşları bizi ziyarətə gəlmişdilər. Onlarla söhbət zamanı ürəyim dağa döndü. Elə bildim ki, Fəxrəddinim sağdı. Polisin sıralarında Vətənimizin mərd, mübariz oğulları xidmət edir. Əksəriyyəti döyüş yolu keçib. Şəhid atası kimi mən Polisimizlə fəxr edir, bu əlamətdar gün münasibətilə hər birinə təbriklərimi çatdırıram".

**Şəhid Emin Bağırovun atası İmran Bağırov:** "Azərbaycan Polisinin şanlı tarixi var. Elə torpaqlarımız uğrunda da əlinə silah götürüb döyüşlərə, atılan əlil və şəhid olan da polis olub. Bu gün də onların sayəsində ölkəmizdə əmin-amanlıq var, sabitlik hökm sürür. Bütün şəhid valideynləri adından Azərbaycan Polisinin yaranmasının 102-ci ildönümü münasibətilə təbrik edir, onlara cansağlığı, xoşbəxtlik arzulayıram"...

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

## VƏTƏNDAŞ MƏMNUN QALIR, ÇÜNKİ XİDMƏTİNDƏYİK

**Üzləşdiyi problemin həllində köməklik göstərilməsi və ya pozulmuş hüquqlarının bərpa olunması üçün vətəndaşın müraciət etdiyi, üz tutduğu ünvan polis olur. Polisin "qapısı" gecə-gündüz hər kəsin üzünə açıqdır. Bütün işıqlar sönəndə polisin işığı həmişə yanır. Çünki işıq ümiddir...**





Polis heç vaxt yatmır, o, həmişə oyaqdır. Onun işi çox çətin və məsuliyyətlidir. Günün istənilən saatında edilən müraciətə, gələn zəngə cavab verməlidir. Ani bir məsuliyyətsizliyi böyük bir faciəyə yol aça, bir insan ömrü yarıda qırıla bilər. Azərbaycan Polisinin yaranmasının 102-ci ildönümünü DİN Növbətçi Hissələri İdarəetmə Xidmətinin əməkdaşları hər il olduğu kimi bu il də iş başında qeyd etdilər. Yorğun, yuxusuz olsalar da qürurlu və sevincliydilər. Onların bu çətin, məsuliyyətli fəaliyyətlərini işıqlandırmaq, bayram ovqatlı yazı hazırlamaq üçün əsl məqam idi...

Gələn zənglərə operativ reaksiya verir, qeydiyyat aparır, ünvan soruşur, bir sözlə xəttin o başında çarəsiz vəziyyətdə qalaraq onlara pənah gətirənlərin imdadına çatırlar.

Xidmətin rəisi, **polis polkovniki Mirəziz Mirəliyev** deyir ki, gələn məlumatları növbətçi, növbətçi köməkçisi və operator ağırlıq dərəcəsinə görə operativ şəkildə çeşidləyirlər. Bakı şəhəri üzrə məlumatlar Bakı şəhər Baş Polis İdarəsində toplanır və Nazirliyə ötürülür. Bölgələr isə birbaşa Mərkəzi Aparatla əlaqə saxlayırlar. Törədilən ağır cinayətlər xüsusi diqqət mərkəzində saxlanılır və DİN rəhbərliyinə məruzə olunur. Eyni zamanda, hadisə yerinə ərazi polis orqanlarının əməkdaşları cəlb olunur və mövcud qanunvericiliyin tələbləri əsasında tədbirlər görülür.

Polis polkovniki M.Mirəliyev bü gün ölkəmizin ən ucqarında belə hamı üçün əlçatan olan "102 Xidməti-Zəng Mərkəzi"nin fəaliyyətinin qənaətbəxş olduğunu diqqətimizə çatdırdı. Dedi ki, xidmətin əksəriyyətini gənclər təşkil edir. Günün 24 saatı vətəndaşların müraciətləri dinlənilir və aidiyyatı üzrə yönləndirilir.

"Hazırda pandemiya ilə əlaqədar həssas bir dönəm yaşayırıq. Elə "102"-yə edilən zənglərin çoxu xüsusi karantin rejiminin pozulması ilə bağlıdır. Alınmış məlumat əsasında polis əməkdaşları sözügedən ünvana yollanır. Əgər məlumat təsdiqini tapırsa müvafiq tədbir görülür, inzibati protokol tərtib olunaraq xüsusi karantin rejiminin qaydalarını pozmuş hüquqi və fiziki şəxslər cərimələnir." Xüsusi karantin rejimini pozanlarla mübarizədə vətəndaşlar da fəallıq nümayiş etdirirlər. Bu da onların Azərbaycan Polisinə olan inam və etibarının göstəricisi, vətəndaş-polis həmrəyliyinin bariz nümunəsidir. Ölkəmizdə koronavirus pandemiyası ilə mübarizədə həyata keçirilən karantin tədbirlərində polis əməkdaşlarının xidməti vəzifə borclarını layiqincə yerinə yetirdiklərinə, fədakarlıq nümayiş etdirdiklərinə, eləcə də ehtiyacı olan ailələrə göstərdikləri ərzaq yardımlarına görə redaksiyamıza daxil olan təşəkkür məktubları da bunu təsdiqləyir.

Gəlin, hər anı fürsət bilib könül sevindirək. Bunu bacarsaq hər ötən, elə gələn günümüz də bayram ovqatlı olacaq. Bizlərə bayram sevincini doya-doya yaşamaqa haqq verən xalqımıza, dövlətimizə xidmətimizlə qürur duyaq, əziz həmkarlarımız. Keşiyimizdə ayıq-sayıq dayanaq ki, təhlükələrdən, təhdidlərdən uzaq olaq. Qazandığımız etibarı, inamı və güvənci çətinliklərə sinə gərib, oddan-alovdan keçib 102 il qoruyub-saxlamışıqsa, üzümüzə gələn illərdə də körpələrin beşiyində rahat uyuması, Azərbaycan adlı sabitlik adasının, Vətənimizin qüdrətlənməsi və güclənməsi üçün adımıza, andımıza sadiq olmalıyıq.

*Teymur Əlizadə,*
*polis kapitanı*

## BU DA BİR SINAQDIR

**Koronavirus pandemiyasının dünyada vüsət aldığı ilk gündən vətəndaşlarımızın sağlamlığının qorunması dövlət siyasətimizin prioritetinə çevrildi. Ölkə başçısı cənab İlham Əliyevin pandemiyaya qarşı mübarizədə çoxsaylı önləyici tədbirlər görməsi, bütün dövlət qurumlarının səfərbər olunması və bəlanın daha böyük faciələrə yol açmaması üçün tətbiq olunan karantin rejiminə nəzarətin Daxili İşlər Nazirliyinə həvalə edilməsi, ümumilikdə, daxili işlər orqanlarının fəaliyyət istiqamətini müəyyən etdi. DİN rəhbərliyinin tapşırığı ilə paytaxtda olduğu kimi, bölgələrdə də polis görəvini daha gücləndirilmiş şəkildə icra etməyə başladı.**

Ağ xalatlı xilaskarlarımız olan həkimlərimiz koronavirusa yoluxmuş xəstələrin müalicəsi, onların yenidən sağlam həyata qovuşması üçün necə fədakarlıq göstərirsə, biz də gündəlik olaraq, vətəndaşlarla maarifləndirici söhbətlər aparır və reydlər zamanı mütləq şəkildə müəyyən olunmuş qaydalara riayət etmələrini izah edir, bu qaydaların onların sağlamlığı üçün vacib olduğunu bildiririk. Sərt karantin rejimi günlərində fəaliyyətimizə vətəndaşlar tərəfindən yüksək qiymət verilməsi, tətbiq olunan cəzaların belə anlayışla qarşılanması çəkilən zəhmətin hədər getməməsinin bariz nümunəsidir.

Əvvəlki illərdə olduğu kimi, pandemiya dövründə də Azərbaycan polisi vətəndaşlarımızın köməyinə yetməklə, həmçinin min illər boyu qoruyub-saxladığımız ənənələrimizə sadiqliyi ilə vətəndaş-polis münasibətlərinin nümunəvi tablosunu yaratdı. Sosial şəbəkələrdə, kütləvi informasiya vasitələrində polisin fədakarlığı manşetə çevrildi və apardığımız uğurlu fəaliyyət nəticəsində deyilənləri qulaq ardına vuranlar, vətəndaş məsuliyyətini dərk etməyənlər, ən əsası, qaydaları pozanlar ictimai qınağın hədəfi oldu.

Etiraf edək ki, təkcə öz sağlamlığını deyil, ətrafındakı onlarla, yüzlərlə insanın həyatını təhlükəyə atan və koronavirus epidemiyasına dırnaqarası yanaşanların qaydaları pozması və məsuliyyətsizliyi hüquq mühafizə orqanları əməkdaşlarını da çətin vəziyyətdə qoyur.

Pandemiyaya qarşı mübarizədə ərazi polis orqanlarının roluna, əldə olunan uğurlara və qarşıya çıxan çətinliklərə gəlincə, qeyd etmək istərdik ki, Suraxanı Rayon Polis İdarəsinin 30-cu Polis Şöbəsi inzibati ərazisi üzrə fəaliyyət istiqamətini günün tələblərinə uyğun qurub. Hələ pandemiya ilə əlaqədar ilkin karantin rejiminin tətbiq olunduğu günlərdə şöbənin əməkdaşları bu bəlanın yoluxucu, insan həyatı üçün təhlükəli, hətta ölümə belə yol açdığı barədə əhali arasında mütəmadi olaraq maarifləndirici söhbətlər aparmışlar. Bu gün şöbənin şəxsi heyətinin qarşısında qoyulan əsas tələb koronavirusla mübarizədə daha böyük əzmkarlıqla öz vəzifə borclarının öhdəsindən gəlmələridir. Gücləndirilmiş iş rejimində, özü də belə bir çətin dövrdə xidmət etmək böyük məsuliyyətdir, ancaq söhbət insan sağlamlığından, dövlətin təhlükəsizliyindən gedirsə, deməli, bütün çətinliklərə sinə gərmək üçün var gücümüzü səfərbər etməliyik.





Ötən dövr ərzində tərəfimizdən aparılan statistika zamanı müəyyən etdik ki, karantin rejimi qaydalarını pozanların arasında orta yaş həddində olan şəxslər çoxluq təşkil edir. Düzdür, polis ilkin karantin rejimi dövründə humanizm sərgiləyərək onları xəbərdarlıq etməklə kifayətlənmişdi. Ancaq bu gün yoluxma hallarının çoxalması və ölkə rəhbərliyinin cəzaların sərtləşdirilməsi ilə bağlı haqlı mövqeyindən sonra tərəfimizdən daha sərt addımlar atıldı və atılır.

Yeri gəlmişkən, pandemiya dövründə şöbə əməkdaşları tərəfindən 200-ə yaxın ehtiyacı olan aztəminatlı ailəyə yardım göstərilib. Karantin rejimi qaydalarını pozanlar barəsində 1238 protokol tərtib olunub. Keçirilən reydlər zamanı Hövsan qəsəbəsi Bağlar massivində, Quşçuluq massivində, Hövsan kəndi Zeytunluq sovxozunda rejim qaydalarını pozan 6 kafe sahibinə və müştərilərinə 40-dan çox protokol yazılıb, 3 nəfərə inzibati qaydada məhkəmə tərəfindən həbs cəzası verilib.

Qarşıya çıxan çətinliklərə baxmayaraq, hüquq mühafizə orqanları əməkdaşları vətəndaşlara həssas münasibət göstərir, qanun çərçivəsində hərəkət edir, ən önəmlisi isə sosial məsafənin qorunması, SMS icazənin alınması, qoruyucu maskalardan istifadənin zəruriliyini hər bir vətəndaşla söhbətdə xatırladırlar.

Biz çətinlikdən qorxmuruq. Qutsal görəvimiz uğrunda canımızı verməyə hər an hazırıq. Necə ki, bu gün öz həyatlarını riskə ataraq gecə-gündüz xidmət aparan həmkarlarımız sırasında da təəssüf ki, koronavirusa yoluxanlar və həyatda qalmaq uğrunda mücadilə edənlər var.

Pandemiya üzərində qələbə çalmağımız üçün cənab Prezidentin də vurğuladığı kimi, "Biz birlikdə güclüyük!" devizi ilə həmrəyliyə nail olsaq, "Evdəqal" çağırışına qoşulsaq, üzərimizə düşən vəzifələri vicdanla yerinə yetirsək, həm də vətəndaş olaraq məsuliyyətimizi dərk edib qaydalara riayət etsək, o zaman dövlətimizi, elə öz taleyimizi, sağlamlığımızı, doğmalarımızı da pandemiyadan xilas edə bilərik.

*Elnur Əliyev,*
*Suraxanı RPİ-nin*
*30-cu Polis Şöbəsinin rəisi,*
*polis polkovnik-leytenantı*

# “Xəzri” sizi gözləyir!




**Qeyd:** 1. “Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında” Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 33,75 manat (iki nəfərlik nömrəni tək tutduqda 52,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 101,25 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 82,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 135,00 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 165,00 manat təşkil edir.

4. 6 yaşadək uşaqların qalması ödənişsizdir.

5. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan “Xəzri” İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 01 iyun - 15 sentyabr 2020-ci il tarixlərdə mövsüm üzrə qiymətləri**
**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə “Koroğlu” metro stansiyasından 171 nömrəli avtobus gəlir.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51;**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

| 01 iyun - 15 sentyabr 2020-ci il (2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 270 manat, bir nəfər tək qaldıqda 210 manat) | | |
|---|---|---|
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 33,75 manat | 52,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 67,50 manat | 105,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 30,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 135,00 manat | 210,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 60,00 manat | |

## Polis sahə məntəqəsinin açılışı olub...




Azərbaycan Polisinin yaranmasının 102-ci ildönümü ərəfəsində Saatlı Rayon Polis Şöbəsinin sahə rəislərinin və sahə inspektorlarının iş fəaliyyətini yaxşılaşdırmaq üçün tikilmiş müasir tipli polis sahə məntəqəsinin inzibati binasının açılış mərasimi keçirilib. Tədbirdə rayon rəhbərliyinin nümayəndələri və sakinlər iştirak ediblər.

Məlumat verilib ki, inşasına ötən ilin oktyabrında başlanılmış məntəqənin ümumi sahəsi 72 kvadratmetrdir. Müasir standartlara uyğun tikilmiş məntəqə bütün zəruri avadanlıq, inventar və kommunikasiyalarla təchiz edilib. Ərazi hasarlanıb, abadlaşdırma, yaşıllaşdırma və xarici işıqlandırma işləri yerinə yetirilib.

## ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

Binəqədi Rayon Polis İdarəsinin 5-ci Polis Bölməsinin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat tədbiri nəticəsində külli miqdarda narkotik vasitə və psixotrop maddə qanunsuz dövriyyədən çıxarılıb. Daxil olan məlumat əsasında bölmə əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində Bakı şəhər sakinləri, 1994-cü il təvəllüdlü Amil Orucov və 1995-ci il təvəllüdlü Əlihüseyn Hüseynov saxlanılıb.

A.Orucovdan şəxsi axtarış zamanı 1 kiloqram 9 qram heroin, Ə.Hüseynovdan isə 10 qram heroin və 183 qram metanfetamin aşkar edilərək götürülüb. Onlar ifadələrində narkotik vasitələri satmaq məqsədi ilə şəxsiyyəti istintaqa hələ ki, məlum olmayan bir nəfərdən aldıqlarını bildiriblər.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, adları çəkilən şəxslər tutularaq istintaqa təqdim olunublar. Cinayət işi üzrə zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

✦✦✦✦✦

Binəqədi Rayon Polis İdarəsinin 43-cü Polis Bölməsinin əməkdaşları tərəfindən Binəqədi qəsəbəsinin müxtəlif nöqtələrində narkotik vasitələrin qanunsuz dövriyyəsi və satışı ilə məşğul olan şəxslərə qarşı növbəti əməliyyat tədbiri həyata keçirilib. Əməliyyat zamanı narkotik vasitələrin satışı ilə məşğul olan Binəqədi qəsəbəsi sakinləri, əvvəllər məhkum olunmuş Rövşən Əsədzadə və Kamil Quliyev saxlanılıb. Onların üzərinə baxış zamanı ümumi çəkisi 274 qram narkotik vasitə olan heroin və psixotrop maddə metamfetamin aşkar olunaraq götürülüb. Araşdırma zamanı müəyyən edilib ki, Rövşən Əsədzadə Abşeron Rayon Polis İdarəsi tərəfindən Cinayət Məcəlləsinin 234.2 (Satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma) maddəsi ilə axtarışda olub.

Saxlanılan şəxslər ifadələrində narkotik vasitələrin satışı ilə məşğul olduqlarını etiraf ediblər.

✦✦✦✦✦

Daxil olmuş məlumat əsasında Baş Dövlət Yol Polisi İdarəsi və Zaqatala RPŞ əməkdaşlarının birgə keçirdikləri əməliyyat tədbiri nəticəsində iyunun 28-də saat 1 radələrində Yevlax-Zaqatala yolunda yerləşən YPXA postunda Balakən rayon sakini C.Əbəciyevin idarə etdiyi “VAZ-2106” markalı avtomobil nəzarət qaydasında saxlanılmış, sürücü və sərnişini Gəncə şəhər sakini R.Məmmədov Zaqatala RPŞ-yə gətirilmişlər.

Şəxsi axtarış zamanı R.Məmmədovdan 3,5 kiloqram marixuana aşkar edilərək götürülmüşdür.

## PEŞƏKARLIQ VƏ ÇEVİKLİK VARSA...

Xocasən qəsəbə sakini Əlibala Hüseynov evindən 1500 manat dəyərində təmir-tikinti avadanlıqlarının və texnikasının oğurlanması barədə şikayət edib. Dərhal iş nəzarətə götürülüb və təcrübəli əməkdaşlardan-əməliyyat müvəkkili, polis baş leytenantı Hacı Musayev və sahə rəisi, polis leytenantı Yasin Ağayevdən ibarət əməliyyat-axtarış qrupu yaradılıb. Təxirəsalınmaz tədbirlər nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən, əvvəllər də anoloji əməllərə görə məhkum olunmuş Əhməd Babayev və Hüseyn Ağayev saxlanılıblar.




Müəyyən edilib ki, zərərçəkmişin evdə yaşamadığını fürsət bilən “dostlar” plan qurublar. Sonra özlərini ələ verməmək üçün oğurladıqları təmir-tikinti avadanlıqlarının yarısını müxtəlif bazarlarda satıblar. Ancaq bölmə əməkdaşlarının peşəkarlığı və sayıqlığı sayəsində yaxalarını ələ veriblər. Araşdırma zamanı Əhmədin Bakı şəhər sakini Məzahir Mərdəliyevin 504 manat dəyərində mobil telefonunu, 285 manatını oğurlaması, Hüseynin isə Bakı şəhər sakini Həlimə Lələyevanın evindən oğurluq etməsi də müəyyən olunub. Onları bu əməllərə sövq edən narkotik aludəçiliyi olub.

Faktla bağlı suallarımızı cavablandıran Binəqədi RPİ 40-cı Polis Bölməsinin rəisi, polis polkovnik-leytenantı Ramil Cəbiyev bildirdi ki, vətəndaşların müraciətlərinə həssaslıqla yanaşmaq, operativ reaksiya vermək polisin vəzifə borcudur. O, funksional vəzifələrinin yerinə yetirilməsində peşəkarlığın vacib amil olduğunu, daima öz üzərlərində işlədiklərini, bilik və bacarıqlarını daha da təkmilləşdirdiklərini də diqqətimizə çatdırdı: “İşimizdə çeviklik, təcrübə önəmli faktordur. Sadaladıqlarımızın bizə pənah gətirənlərin üzləşdikləri problemlərin həll olunmasında əhəmiyyətli rolu var. Vətəndaş məmnunluğu Azərbaycan Polisi olaraq bizim də sevincimizdir”.

*Teymur Əlizadə,*
*polis kapitanı*

## İyun ayının 25-dən iyulun 1-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 172 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 24 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 433, o cümlədən borclu şəxs qismində axtarışda olan 344 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 10 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 10 nəfər ölmüş, 1 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 115 fakt müəyyən edilmişdir.

## DÜNYAYA PƏNCƏRƏ

Doqquz fərqli ölkədə aparılan beynəlxalq narkotik əməliyyatı nəticəsində 1992-ci ildən bəri “Türk Eskobar” olaraq tanınan Nejat Daşla birlikdə aralarında həyat yoldaşı və baldızının da olduğu 67 nəfər saxlanılıb. Onların arasında 3 nəfər hüquq mühafizə orqanlarının əməkdaşları da var.

Türkiyənin Daxili İşlər naziri Süleyman Soylu əməliyyatın Ankara Baş Prokurorluğu, Narkotiklərlə Mübarizə İdarəsi, Ankara və İstanbul Polis Şöbələri, Maliyyə Cinayətlərinin İstintaqı İdarəsi (MASAK) ilə birlikdə uzun müddət planlaşdırıldığını bildirib. “Bu əməliyyatın adı “Bataqlıq”-dır. Vacibi isə tərəfi narkotik və narkotiklə əlaqəli qanunsuz gəlirlərlə mübarizə aparmaqdır. Əməliyyat Hollandiya, Belçika, İspaniya, İtaliya, Çili, Ekvador və Braziliya ilə birlikdə ortaq şəkildə təşkil olunub. Hədəfdə 94 şəxs var idi. İndiyə qədər 67 şəxs saxlanılıb”,- deyə nazir vurğulayıb.

*****

***Niderlandda poçt vasitəsilə narkotik ticarətinin həcmi son illərdə önəmli miqdarda artıb. Hər ay ölkədən xaricə bu yolla 9 min paket müxtəlif növ narkotik maddə göndərilir.***

***Belə ki, narkotik vasitələr Almaniya, Fransa, Estoniya, Litva, Latviya, ABŞ, Avstraliya və aralarında Asiya ölkələrinin də olduğu bir çox yerə göndərilir. Bildirilir ki, poçt vasitəsilə narkotik ticarəti ilə məşğul olanlar əsasən gənc və təhsilli şəxslərdir. Hökumət bu gənclərin çoxunun beynəlxalq narkotik qaçaqmalçısı olduqlarının fərqində olmadıqlarını söyləyir.***

***Bu il Avstraliyaya 70-dən çox narkotik paketi göndərdiyi müəyyən edilən 23 yaşlı bir gənc saxlanılıb və 5 il həbs cəzası verilib. Onun il yarım ərzində azı 2,2 milyon avro pul qazandığı və bu pulu tətil, gecə həyatı kimi lüks yaşayış üçün xərclədiyi bildirilib.***

*****

Cari ilin ötən dörd ayı ərzində İranın polis və sərhəd xidməti tərəfindən 950 ton narkotik vasitə müsadirə edilib. Bu barədə İranın Narkotik maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə idarəsindən məlumat verilib.

Bildirilib ki, narkotik vasitələrin qaçaqmalçılığının qarşısını almaq məqsədilə aparılan mübarizədə 3800 polis əməkdaşı və sərhədçi həlak olub. Silahlı qaçaqmalçılarla baş verən toqquşmalarda 12 min polis əməkdaşı xəsarət alıb.

*****

***Gürcüstanda körpənin satılması və alınmasına görə üç nəfər saxlanılıb. Bu barədə Dövlət Təhlükəsizliyi Xidmətindən bildirilib. İstintaqla müəyyən olunub ki, Duşeti rayonunda yaşayan cütlük bu ilin iyunun 18-də dünyaya gələn uşaqlarını gəlir əldə etmək məqsədilə satmaq istəyib. Valideynlər körpəni 5 min ABŞ dollarına almaq istəyən şəxslə razılığa gəliblər. Həmin şəxs yeni doğulan uşağın şəhadətnaməsində ata kimi qeydiyyata alınıb. Ata-ana danışılan məbləği alarkən saxlanılıb.***

*****

İnterpolun ən təhlükəli terrorçular siyahısında axtarışa verilən daha bir terrorçu Türkiyədə ələ keçirilib. İzmirin Bornova rayonunda saxlanılan terrorçunun “DHKP/C” terror təşkilatının maliyyə işlərini idarə etdiyi müəyyənləşib. O, Türkiyə Daxili İşlər Nazirliyi tərəfindən tərtib olunan siyahıda qırmızı bülletenlə axtarışda olub. Onun ələ keçirilməsi üçün böyük məbləğdə pul mükafatı nəzərdə tutulmuşdu.

*Natiq Cavadov*

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
BURAXILIŞA MƏSUL: E.ZAHİDOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 7300
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:30
Qiyməti 40 qəpik